# AKVABİOTƏHLÜKƏSİZLİK: ŞUŞANIN AKVAKULTURALLIQ VƏ AKVAMÜXTƏLİFLİYİNİN SİYASİ KOMPONENTLƏRİ

**Rəna Mirzəzadə**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, mirrena54@yahoo.com*

Akvabiotəhlükəsizlik problemi ölkələrin geosiyasi münasibətlərində çox vacib yeri olan məsələdir. Su çox qiymətli sərvətdir. İnsan bədənində su oksigendən sonra ikinci yeri tutur və qanın 92%, beynin 75%, sümüklərin 22%-i sudur. Yeməksiz 2 ayadək, susuz bir neçə gün yaşamaq mümkündür. Böyük Nizami demişkən: "Sözün də su kimi lətafəti var, Hər sözü az demək daha xoş olar, Bir inci saflığı varsa da suda, Artıq içiləndə dərd verir o da" (3). Belə bir aforizm var: "Dünyadakı ən güclü Su qadınların göz yaşıdır". Təbii ki, bu, barış, sülhə ünvanlanan qadın göz yaşı mənasında deyilir. Xəzər suları uğrunda daim "soyuq müharibə" gedir. Əhali artımı, qlobal istiliyin intensivləşməsi su ilə bağlı siyasət məsələlərini də aktuallaşdırmışdır. "Su miqrasiyası" ciddi xarakter almağa başlamışdır. Su çatışmazlığı nəticəsində dünyada yarım milyona qədər insan "su qaçqını"na çevriləcək. Qlobal dünyada suyun əsas hissəsi istehsal resursları tərəfindən sərf edilir. Bu da su ehtiyatları uğrunda dövlətlərarası qarşılıqlı münasibətlərdə toqquşmalar yaradır. Bu gün XXI əsr informasiya müharibəsindən danışanda unutmayaq ki, su müharibəsi də çox təhlükəlidir. "Su bəlkə də müharibələr üçün səbəb olmaya bilər, ancaq məqsəd müharibə törətmək olduqda "su problemi" bəhanə olmaq üçün kifayətdir. Ehtimaldır ki, qlobal güclərin maraqlarının toqquşduğu XXI əsrdə su toqquşmaları nəinki diplomatik bir vasitə, hətta geobiotəhlükəsizlikdə yeni silah hesab ediləcəkdir. Buna görə dünyada münaqişə yaratmaq istəyən bütün güclərin "su müharibələri", yəni "yeni soyuq müharibə modelinin" strategiyaları yaranacaqdır. Bu ölçüdən də XXI əsrin tarixə "su müharibələri əsri" adı ilə düşməsi gerçəklikdir. Bu mənada, XXI əsr geosiyasətdə akvatəhlükəsizlik diplomatiyası yeni "silahdır" və "su çatışmazlığı" reallıqdır. Dövlətlərarası akvatəhlükəsizlik və akvakultural problemlərin həllində beynəlxalq hüquqda vahid yanaşma və universal normalar yoxdur. Bu da akvatəhlükəsizliyin yaranmasında gərginliklərə yol açır.

Azərbaycan da yaxın qonşu dövlətlərlə "Su münaqişəsi" ilə üzləşir. Azərbaycan Respublikası Su Məcəlləsində deyilir: "Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan xalqının milli sərvətidir, əhalinin həyat və fəaliyyətinin əsası kimi istifadə edilir və qorunur, flora və faunanın mövcudluğunu təmin edir" (2). Azərbaycanın transsərhəd çaylarını qonşu Ermənistan zəhərli maddələrlə çirkləndirir. Qonşu Ermənistanın Azərbaycana qarşı yönəlik, Akvabiotəhlükəsizlik davranışı insani hüquqlara ziddir.

ŞUŞA Azərbaycanın mədəniyyət paytaxtıdır, şəffaf, təmiz və qeyri-adi dadlı, buz tək Akva-Su bulaqları ilə tanınır və İsa bulağı, Şəkili, Daşaltı, Soyuqbulaq, Şorbulaq, Saxsıbulaq, Əjdaha, Dəvəbatıran və s. bulaqları ilə məşhurdur. Biotəhlükəsizlik anlamında baxsaq, təbii dərman, əvəzsiz mineral suyu olan Turşsu çox xəstəlikləri müalicə edir. Dünyada ən uzun mineral su kəməri 32 km məsafədən Nazran tipli Şırlan suyu Şuşanı kurort şəhərinə çevirmişdi. Əhalinin suya olan ehtiyacının ödənilməsi üçün Xan qızı Xurşudbanu Natəvan 1873-cü ildə Şuşaya Şarıbaba dağından su kəməri çəkdirmişdi. Bütün Zaqafqaziyada yeraltı kanalizasiya sistemi ilk dəfə Şamaxıdan sonra Şuşada quraşdırılmışdı ki, bu da akvakulturallıq nümunəsidir. Turşsuyun, Şəkili bulağının, İsa bulağının, Fındıqlı gölünün akvamüxtəlifliyi məşhur idi.

44 günlük müharibədən sonra azad edilən Şuşada ilk növbədə Zəfər Yolundan keçən ərazidə elektrik yarımstansiyası inşa edilib. Şuşada əhalinin məskunlaşması və turizmin inkişafı nəzərə alınaraq Zarıslı çayından alternativ su mənbəyi kimi istifadə edilməsi üçün 2020-ci il 20 dekabr, Kiçik

Kirs mənbəyindən içməli suyun verilməsi isə 25 noyabr tarixində təmin olunub. Şəhərdə tullantı su şəbəkələri yenidən qurulur, bu suların optimal idarə edilməsi və təmizlənib zərərsizləşdirilməsi məqsədilə sutəmizləyici qurğular inşa edilir.

Su nəinki dövlətləri, hətta canlı fauna və flora, eləcə də əsas insanlığın ən ümdə tələbatıdır. Su birləşdirən bir faktordur. Su saflıq rəmzi olduğu kimi, haradasa inam, iman, müqqəslik daşıyıcısıdır. Adətdir, evdən çıxan, döyüşə yollanan, ağır iş üçün gedənin "yoluna su səpilsin" deyə su atırlar. Bu inanc da olsa, suyun gərəkliliyinin və sanki hər hansı çətinliyin həllinə köməkliyin rəmzidir. Novruzun dörd çərşənbəsindən biri su çərşənbəsidir. XXI əsr "ağıllı su" terminini də meydana çıxarıb. Və hətta "intellektual su" anlamı da yaranmışdır. Dövlətarası olduğu kimi, Azərbaycanda da rayon-kənd-qəsəbələrarası su çatışmamazlığı olur və hətta "su davası" da yaranır. Yaxşı olardı ki, bələdiyyələrdə "su koordinasiyası şuraları" yaradılsın. TV-lərdə "Su və Həyat" adlı verilişlər hazırlansın. Küçə və yollarda "Suyu qoruyaq" şüarları yazılsın ki, bu da akvatəhlükəsizlikdə akvakulturallığın göstəricisi olar.

**Ədəbiyyat siyahısı**

1. President.az/az/articles/5394
2. Azərbaycan Respublikasının Su Məcəlləsi: Bax:www.e.qanun.az/frameworl/46940
3. Az.m.wikipedia.orq./wiki/Nizami_Gencevi